Ədəbiyyat qəzeti

30 2 oktyabr 2021-ci il



## Buludxan XƏLİLOV

Azərbaycanın ədəbi ictimaiyyətinə ağır itki üz verib. Tanınmış alim, filologiya elmləri doktoru, professor Buludxan Xəlilov vəfat edib.

Buludxan Əziz oğlu Xəlilov 1966-cı il iyulun 25-də Qərbi Azərbaycanın Amasiya rayonunun Ellərkənd kəndində anadan olub. Burada orta məktəbi bitirib, 1983-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinə qəbul olunmuşdur. Əmək fəaliyyətinə həmin universitetdə laborant kimi başlamışdır. 1992-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Müasir Azərbaycan dili kafedrasında müəllim, dosent, professor vəzifələrində işləmişdir. 2006-cı ildə filologiya fakültəsinin dekanı təyin edilmişdir. 2018-ci ildə müasir Azərbaycan dili kafedrasının müdiri vəzifəsinə keçirilmişdir. Azərbaycan dilçiliyinə, türkologiyaya aid iyirmiyə yaxın kitabın və dərsliyin müəllifidir. "Azərbaycan dilində ikihecalı fellərin fonosemantik inkişafı", "Fellərin ilkin kökləri", "Birinci Beynəlxalq Türkoloji qurultay", "Türkologiyanın intibah dövrü", "Türkologiyaya giriş", "Azərbaycan dili", "Türkün hikmət xəzinəsi: Xoca Əhməd Yəsəvi", "224 qədim türk sözü" kimi əsərləri dərin araşdırmalarının məhsuludur. Bir çox nüfuzlu elmi qurumların üzvü olmuş, bir çox beynəlxalq mükafatlara layiq görülmüşdür. Elmi fəaliyyəti "Tərəqqi" medalı, "Əməkdar müəllim" fəxri adı ilə dəyərləndirilmişdir.

İstedadlı qələm yoldaşımız, səmimi, təvazökar insan Buludxan Xəlilovun işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**